http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 08 (1626) 29 aprel 2016 - cı il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib

**Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multi-kultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir...

* * *



Dövlət və hökumət başçıları, Forumun digər yüksək səviyyəli iştirakçıları birgə foto çəkdiriblər.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

## BU SAYIMIZDA




BÖYÜK ELMİ ŞURADA 2

Azərbaycan Tibb Universiteti İordaniyada beynəlxalq təhsil sərgisinə qatılıb 8

Bakıda ikinci Azərbaycan-alman-türk tibb konqresi keçirilib 4





“BU PETİSİYANIN ƏSAS MƏQSƏDİ 47 ÖLKƏNİN SƏS VERDİYİ QƏTNAMƏYƏ ABŞ PREZİDENTİNİN MÜNASİBƏTİNİ ÖYRƏNMƏKDİR” 3



Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi doğma Tibb Universitetində anıldı 2

Azərbaycan Tibb Universiteti elektron təbabətə dair konfransa hazırlaşır 5





Stomatologiya fakültəsində TEC-in konfransları keçirilib 6

# Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi doğma Tibb Universitetində anıldı

**Aprelin 26-da Azərbaycan Tibb Universitetində görkəmli alim, əməkdar elm xadimi, oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 93 illiyinə həsr olunmuş yığıncaq keçirilib.**





Tədbiri açıq elan edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında görkəmli oftalmoloq Zərifə Əliyevanın Azərbaycan səhiyyəsində, ölkəmizin tibb elminin inkişafında, həmçinin ictimai həyatında dərin iz qoymuş bir insan olduğunu bildirdi.

G.Gəraybəyli görkəmli alim Zərifə Əliyevanın ictimai və peşəkar həyatının Tibb Universiteti ilə sıx əlaqədar olduğunu qeyd etdi. Rektor xatırladtı ki, Zərifə Əliyeva 1942-ci ildə Tibb Universitetinə daxil olub. Həyatının böyük hissəsini oftalmologiya elminin inkişafına həsr edib:

"Akademik Zərifə Əliyevanın bir çox göz xəstəliklərinin diaqnostikası və müalicəsində misilsiz xidmətləri olub. Xüsusilə, traxoma infeksion xəstəliyinin müalicəsində və bu xəstəliyin Azərbaycanda yayılmasının qarşısının alınmasında böyük rolu olmuşdur. Zərifə Əliyeva təkcə alim-oftalmoloq kimi yox, həmçinin böyük ictimai və tibb xadimi kimi tanınıb. O, ölkəmizdə çoxsaylı oftalmoloji tədbirlərin keçirilməsinin təşəbbüskarı olub".

Görkəmli oftalmoloqun elmi və pedaqoji fəaliyyətindən söz açan rektor Gəray Gəraybəyli bildirdi ki, Zərifə xanım bir çox nüfuzlu elmi mükafatların, o cümlədən SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatını almış ilk azərbaycanlı olub.

ATU-nun oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur çıxışında Azərbaycanın ən böyük xanımlarından biri olan Zərifə Əliyevanın doğum gününün tibb işçiləri üçün xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Qeyd olunub ki, Zərifə Əliyevanın həyatı və elmi fəaliyyəti Elmi-Tədqiqat Oftalmologiya İnstitutu ilə bağlıdır. 1960-67-ci illərdə görkəmli alim məhz bu institutda fəaliyyət göstərib. Sonradan isə Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında elmin inkişafına öz töhfəsini verib. Zərifə xanım Əliyevanın qaynar həyat və yaradıcılıq fəaliyyəti həmçinin Moskvada Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu və Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu, ilə əlaqədar olub.

Daha sonra ATU-nun oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva, ATU-nun II müalicə-profilaktika fakültəsinin tələbəsi Xatun Məmmədova akademik Zərifə Əliyevanın həyat və yaradıcılığı haqqında danışıblar.

Çıxışlar zamanı vurğulanıb ki, ATU öz layiqli məzunu ilə fəxr etməyə haqlıdır. Hazırda Tibb Universitetinin oftalmologiya kafedrası əməkdaşlarının əksəriyyəti Zərifə xanımın yetirmələridir. ATU dünya şöhrətli məzunu Z.Əliyevanın unudulmaz xatirəsini həmişə əziz tutur, bu qocaman təhsil ocağında onun xatirəsinə həsr olunmuş elmi-praktik konfranslar, yubiley gecələri keçirilir ki, bu da gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

# BÖYÜK ELMİ ŞURADA

**Böyük Elmi Şuranın aprelin 25-də keçirilən növbəti yığıncağını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdıraraq "Hərbi tibb fakültəsində tədrisin vəziyyəti və hərbi tibbi kadrların hazırlanmasında kollektivin qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü fakültənin dekanı (rəisi), tibb xidməti polkovniki Fəxrəddin Ağayevə verdi.**






**Ümummilli lider, ulu öndər Heydər Əliyevin 425 saylı 25 may 2000-ci il tarixli sərəncamına müvafiq olaraq ATU-da Hərbi Tibb Fakültəsinin yaradılmasını Silahlı Qüvvələrin tibb xidməti, hərbi tibbi təhsil sisteminin təşkilində irəliyə doğru atılmış müdrik, uzaqgörən bir addım kimi dəyərləndirən F.Ağayev qeyd etdi ki, o vaxtdan ötən 16 illik zaman kəsiyində fakültənin kollektivi, müstəqil dövlətimizin təhlükəsizliyi, dövlətçiliyimizin ən əsas dayaqlarından olan ordu quruculuğunda vacib atribut sayılan hərbi səhiyyənin bütün sahələri üçün peşəkar hərbi həkim və feldşerlərin diplomaqədərki hazırlığı, rezidentura və tibb kadrlarının ixtisas artırmasının təşkili ilə məşğuldur.**

Fakültə dekanı tədris və təlimin yüksək səviyyədə həyata keçirilməsi üçün Ali Baş komandanın, Müdafiə Nazirliyinin və Azərbaycan Tibb Universiteti rəhbərliyinin qayğısını daim hiss etdiklərini vurğuladı: "Təsadüfi deyil ki, Hərbi Tibb Fakültəsinin əsaslı təmirdən sonra istifadəyə verilmiş qərargahının və kursant yataqxanasının açılışında Azərbaycan Respublikası Müdafiə Nazirinin, ATU rektorunun və GATA komandirinin iştirak etmələri və çıxışlarında fakültə kollektivi qarşısında qoyduqları vəzifələr şəxsi heyət arasında böyük ruh yüksəkliyi yaratmışdır."

F.Ağayev bu gün Hərbi Tibb Fakültəsinin təkcə Müdafiə Nazirliyi üçün deyil, Silahlı Qüvvələrin digər qurumları üçün də (Ədliyyə, Daxili Qoşunlar, Sərhəd xidməti, XDMX və s.) hərbi tibbi kadr hazırlığını həyata keçirdiyini diqqətə çatdırdı: "Təsdiq edilmiş ştat strukturuna əsasən ATU-nun Hərbi Tibb Fakültəsində idarəetmə-komandanlıq, tədris bölməsi, məxfi hissə, hərbi cərrahiyyə, hərbi terapiya, tibbi profilaktika kafedraları, tibb xidmətinin təşkili və taktikası, hərbi həkim hazırlığı kursları, rezidentura və tibb heyətinin təkmilləşmə kursları, Hərbi Tibb Məktəbi (hərbi feldşer hazırlığı üzrə), tədris-təminat bölmələri (kitabxana, yataqxana nəzərdə tutulmuşdur.

Hərbi Tibb Fakültəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün müasir tələblərə cavab verən peşəkar, milli ideyalara sadiq, vətənpərvər hərbi-tibbi kadrların hazırlanması məsələsini özü üçün əsas vəzifə olaraq görür."

Hərbi Tibb Fakültəsinin zabit-müəllim heyətinin tədris yükünün ATU-nun professor-müəllim heyətinə uyğun surətdə təyin edildiyinə, tədrisin keyfiyyətini yüksəltmək üçün müəllim və köməkçi heyətlə komplektləşməyə ehtiyac olduğuna diqqət yönəldən fakültə dekanı bildirdi ki, Hərbi Tibb Fakültəsinin tədris-təlim, elmi-metodik fəaliyyəti Müdafiə Nazirliyinin müvafiq idarə və xidmətlərinin iş planlarına və Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarlarına uyğun təşkil edilir.

Hərbi Tibb Fakültəsi öz fəaliyyəti haqqında müəyyən olunmuş qaydada Azərbaycan Tibb Universitetinin rəhbərliyinə, Müdafiə Nazirliyinin Döyüş və Hərbi Təhsil Baş İdarəsinə və Tibb Baş İdarəsinə hesabat verir.

Ehtiyac yarandıqda Müdafiə Nazirinin müavininin razılığı əsasında həqiqi hərbi qulluq dövründə baş və aparıcı tibb mütəxəssisi, hərbi tibb müəssisəsində şöbə rəisi işləmiş, ehtiyatda olan zabitlər hərbi qulluqçu-müəllim, ATU rektorunun əmri ilə hərbi təbabətdə mükəmməl biliklərə yiyələnmiş təcrübəli mütəxəssislər və elmi dərəcəsi olan mülki həkimlər isə qulluqçu-müəllim vəzifələrinə təyin oluna bilərlər.

Beynəlxalq təcrübəyə görə Hərbi Tibb Fakültəsinin I kursuna qəbul üçün bir yerə 8 namizədin sənəd təqdim etməsinin optimal sayıldığını, müvafiq göstəricilərin Sankt-Peterburq Hərbi Tibb Akademiyasında 6, Gülhanə Askeri Tibb Akademiyasında isə təqribən 7 nəfər olduğunu söyləyən məruzəçi cəmiyyətdə hələ də hərbi həkimliyə marağın aşağı səviyyədə olmasından təəssüfləndiyini, bunun subyektiv və obyektiv səbəblərinin olduğunu dedi: "Son beş ildə fakültəyə qəbula gələnlərin sayı Rusiya və Türkiyə ilə müqayisəli şəkildə göstərilmişdir. Belə ki, 2010-cu ildə 1 yerə 2, 2011-ci ildə 3, 2012-ci ildə 2.4, 2013-cü ildə 1.5, 2014-cü ildə isə bir yerə 1.4 nəfər sənəd vermişdir. Bu dinamika tədrisin keyfiyyətinə və mənimsəməyə də neqativ təsir göstərməkdədir".

Fakültə dekanı onu da bildirdi ki, Hərbi Tibb Fakültəsindən fərqli olaraq hərbi feldşer hazırlığı üzrə qəbulda pozitiv dəyişiklik müşahidə olunmaqdadır. Belə ki, 2010-cu ildən başlayaraq minimal bal 82, maksimal bal 400, 2011-ci ildə minimal bal 87 – maksimal bal 403, 2012-ci ildə minimal bal 112, maksimal bal isə 317, 2013-cü ildə minimum keçid balı 152, maksimum bal 412, 2014-ci ildə isə müvafiq olaraq 160, 447 bal təşkil etmişdir.

"Hərbi Tibb Fakültəsində səfərbərlik, döyüş hazırlığı, qarnizon xidməti, daxili qaydalar, şəxsi heyətin hərbi tərbiyəsi və sosial təminatı məsələləri Azərbaycan Respublikası SQ-in nizamnamələri, Müdafiə Nazirinin müvafiq əmrlərinin

(davamı səh. 5-də)

# Azərbaycanla Türkiyə arasında Səhiyyə və Tibb Elmi Sahəsində əməkdaşlığa dair Saziş imzalandı

**Aprelin 26-da səhiyyə naziri Oqtay Şirəliyev Türkiyənin səhiyyə naziri Məhmət Müəzzinoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Oqtay Şirəliyev iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin dərin tarixi köklərə malik olduğunu bildirdi. Nazir qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi, səhiyyə, elm və təhsil, mədəni və beləliklə də bütün sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir.

O.Şirəliyev ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əlaqələrin müstəqilliyimizin ilk illərinə təsadüf etdiyini xatırlatdı. Qeyd olundu ki, ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq Protokolu 1994-cü ildə imzalanıb. Sənədə əsasən hər iki ölkənin tibb universitetləri, həkimləri, təkmilləşdirmə institutları, səhiyyə müəssisələri arasında əlaqələr qurulmuş və Protokolun bütün müddəaları layiqincə yerinə yetirilib.

Hazırda səhiyyəmizin elə bir sahəsi yoxdur ki, orada türkiyəli mütəxəssislərlə əməkdaşlıq qurulmasın. Mütəxəssis mübadiləsi, birgə elmi-tədqiqatlar, əczaçılıq, icbari tibbi sığorta, səhiyyənin maliyyələşməsi və bu kimi bir çox sahələrin tətbiqində Türkiyənin təcrübəsinə böyük önəm verilib. Nazir onu da vurğuladı





ki, bu gün imzalanacaq Saziş gələcəkdə əməkdaşlığın genişləndirilməsinə vəsilə olacaq. Qeyd edib ki, hazırda azərbaycanlı mütəxəssislər türkiyəli həmkarları ilə yanaşı ölkəmizdə "Sağlamlıq həftəsi" çərçivəsində birgə əməliyyatlar həyata keçirirlər. Bu da bir daha dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsidir.

Nümayəndə heyəti adından səmimi qəbula görə minnətdarlığını bildirən türkiyəli nazir Məhmət Müəzzinoğlu özlərini sanki Vətənlərindəki kimi hiss etdiklərini bildirib. Türkiyəli nazir bu görüşün Bakıda yüksək səviyyədə təşkil olunmuş BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Foruma təsadüf etdiyini məmnunluqla qeyd etdi və vurğuladı ki, Forumun istər son dövrlərdə Türkiyədə törədilmiş terror hadisələri, istərsə də Dağlıq Qarabağ münaqişəsinin gərginləşdiyi bir zamanda keçirilməsi çox önəmlidir. Belə qarşılıqlı görüşlər ölkələrimiz arasındakı dostluq və qardaşlığın əbədi olacağının bariz nümunəsidir.

Daha sonra türkiyəli nazir ölkəsinin tibb elmi sahəsindəki təcrübəsindən, ailə həkimlərinin iş prinsipindən, "Türk Sağlıq bilimləri" Universitetinin fəaliyyətindən danışdı.

Görüşün sonunda nazir Oqtay Şirəliyev və Türkiyə Cümhuriyyətinin Səhiyyə naziri Məhmət Müəzzinoğlu Səhiyyə və Tibb Elmi Sahəsində əməkdaşlığa dair Sazişi imzaladılar.

# "BU PETİSİYANIN ƏSAS MƏQSƏDİ 47 ÖLKƏNİN SƏS VERDİYİ QƏTNAMƏYƏ ABŞ PREZİDENTİNİN MÜNASİBƏTİNİ ÖYRƏNMƏKDİR"

**Aprelin 21-də Azərbaycan Tibb Universitetinin böyük akt zalında Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) təşəbbüsü ilə geniş toplantı keçirilib. Professor-müəllim və tələbə heyətinin qatıldığı tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin 1 dəqiqəlik sükütla qeyd olunması ilə başlayıb. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi ilə bağlı petisiya layihəsinə həsr olunmuş tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Gəray Gəraybəyli 25 ildən çoxdur ki, Qarabağ probleminin, ərazilərimizin Ermənistan tərəfindən işğalı və onun nəticələrinin Azərbaycanın əsas problemi olaraq qaldığını vurğulayıb: "Bir milyona yaxın əhalimiz öz yaşadığı yerlərdən didərgin düşüb. Uzun illər keçməsinə baxmayaraq, Ermənistan tərəfindən aparılan təcavüzkar siyasət bu məsələnin həlı də həll olunmamasına gətirib çıxarıb. Ermənistanın aqressiv siyasət aparan rəhbərliyi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş bəyannamələrin tələblərinə məhəl qoymur".**



Rektor mötəbər təşkilatların qərar və qətnamələrinə Ermənistanın cinayətkar rəhbərliyinin etinasızlıqla yanaşdığını, mövcud vəziyyətin isə Azərbaycan üçün yeni-yeni humanitar və ekoloji fəlakətlərə yol açdığını deyib: "Azərbaycana məxsus mədəni abidələr dağıdılır, bizə qarşı ekoloji müharibə aparılır. Bizim təbii sərvətlərimiz, su anbarlarımız, meşələrimiz hələ də düşmən tapdağı altındadır. Məhz AVCİYA-nın apardığı kampaniya çərçivəsində bütün dünya Azərbaycana qarşı aparılan ekoloji təcavüzdən xəbər tutdu. Bu ilin yanvarında təşkilatın sədri, millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə AŞPA-nın sessiyasında 2085 saylı qətnamə qəbul olundu".

Ermənistanın təcavüzünün ağır nəticələri ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanovun fəaliyyətini yüksək qiymətləndirən universitet rəhbəri onun bu istiqamətdə böyük layihələr həyata keçirdiyini və Ağ Evin rəsmi saytında açılmış petisiya layihəsinin də bunlardan biri olduğunu diqqətə çatdırıb.



"Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiyanın bu fəaliyyətin davamı olduğunu söyləyən rektor AVCİYA-nın həyata keçirdiyi petisiyanın imzalanmasında hər bir vətəndaşın, universitet əməkdaşının yaxından iştirak etməsinin zəruriliyini önə çəkib.

Tədbirdə çıxış edən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının sədri, millət vəkili Elxan Süleymanov bildirib ki, petisiyanın ən böyük əhəmiyyəti Azərbaycan həqiqətlərinin dünyaya çatdırmasında oynadığı roldur: "Petisiyaya səs verilməsi yalnız indiyədək bu prosesdə fəal iştirak edən Azərbaycan və Türkiyə əhalisinin deyil, bütün sülhsevər və ədalətpərvər insanların vicdan borcu olmalıdır. Ağ Ev Administrasiyasının internet səhifəsini hər gün ziyarət edən yüz minlərlə insan Azərbaycanın haqq işi uğrunda mübarizəsindən xəbər tutmalıdır".

Bu günədək 194 minədək insanın səs verdiyini söyləyən Elxan Süleymanov qeyd edib ki, bu rəqəm dəfələrlə çox olmalıdır, çünki hər bir səs işğalçı Ermənistanın iç üzünü dünyaya açacaq. Natiq ölkəmizin ərazisinin 20 faizinin erməni silahlı birləşmələri tərəfindən işğalı faktının yalnız Azərbaycan üçün deyil, həm də Ermənistanın özü üçün faciə olduğunu, bu amilin Ermənistanın inkişafını ləngitdiyini söyləyib.

Aprel ayının əvvəllərində ordumuzun döyüş meydanında düşmənə öz gücünü göstərdiyini vurğulayan millət vəkili bildirib ki, bu uğurları həm də siyasi anlamda möhkəmləndirmək tələb olunur. O, müsəlmanlara qarşı qəzəb və nifrət mühitinin hökm sürdüyü AŞPA-da qətnamə qəbul etdirməyin çətinliyinə də toxunub: "Qətnamələrin qəbul etdirilməsi üçün prosedur qaydası da mürəkkəbdir. Lakin bununla belə, yanvarın sonlarında müqavimət və maneələri aşaraq, qəzalı vəziyyətdə olan Sərsəng su anbarı ilə bağlı 2085 saylı qətnaməni qəbul etdirmək mümkün oldu. Bu qətnamədə ermənilərin sudan bir növ silah kimi istifadə etmələri, Azərbaycan ərazilərini işğal altında saxlamaları, su anbarında baş verə biləcək qəza nəticəsində humanitar fəlakətə görə Ermənistanın məsuliyyəti məsələsi qabardılır."

Bu petisiyanın əsas məqsədi 47 ölkənin səs verdiyi qətnaməyə ABŞ prezidentinin münasibətini öyrənməkdir,- deyən Elxan Süleymanov tələbələri səsvermə prosesində fəal olmağa çağırıb. O, eyni zamanda ATU-nun da çoxsaylı kollektivinin bu layihəyə qoşulmasından məmnunluğunu dilə gətirib və hər kəsə bu vətəndaşlıq mövqeyinin nümayişinə görə təşəkkür edib.

AVCİYA-nın eksperti İradə Yaqubova petisiyaya səsvermə proseduru ilə tədbir iştirakçılarını məlumatlandıraraq bildirib ki, hər bir qurğudan (kompüter, mobil telefon və s.) yalnız bir dəfə səs vermək mümkündür.

**A.KAMRANOĞLU**

# Bakıda ikinci Azərbaycan-alman-türk tibb konqresi keçirilib

**Aprelin 21-də Bakıda cərrahiyyə, onkologiya və qastroenterologiya üzrə ikinci Azərbaycan-alman-türk konqresi öz işinə başlayıb.**



Əvvəlcə konqres iştirakçıları Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə gül dəstələri düzülüb.

Sonra tədbir Bakıdakı "Monolit Plaza" hotelində davam edib. Almaniya-Azərbaycan Tibbi Əməkdaşlıq Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən konqresin işində Almaniya və Türkiyənin aparıcı universitet klinikalarında tibbin müxtəlif sahələrində çalışan 15 nəfər tanınmış professor referent qismində iştirak edib.

Tədbirdə çıxış edən Almaniya-Azərbaycan Tibbi Əməkdaşlıq Cəmiyyətinin sədri, professor Qurbanxan Müslümov bildirib ki, respublikamızda artıq ikinci dəfə təşkil edilən bu konqres davamlı tibb təhsili ilə məşğul olan Avropa mərkəzləri tərəfindən beynəlxalq statuslu tədbir kimi tanınıb və konqresə 24 CME (davamlı tibb təhsili) balı verilib. Bu da konqresin beynəlxalq səviyyəli tədbir kimi qəbul edilməsindən və nüfuzundan xəbər verir. "Ötən il olduğu kimi, bu il də maraqlı diskussiyalar və çıxışlarla yanaşı, azərbaycanlı, alman və türk mütəxəssisləri tərəfindən laparoskopik və açıq cərrahiyyə, endoskopiya və radiologiya üzrə treninqlər keçiriləcək. Söz yox ki, bu da mütəxəssis hazırlığı baxımından xüsusi əhəmiyyət kəsb edir", - deyə Q.Müslümov bildirib.

Son illərdə Azərbaycanda bütün sahələrdə olduğu kimi, tibb sahəsində də əhəmiyyətli inkişafa nail olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycanda səhiyyənin inkişafında Türkiyə və Almaniyanın tibb mərkəzləri ilə əlaqələrin böyük rolu var.



Qeyd olunub ki, həkim, tələbə və rezidentlər üçün ümumi, laparoskopik və damar cərrahiyyəsi, endoskopiya, ultrasonoqrafiya və radiologiya sahələrində adi sadə vərdişlərdən tutmuş ən mürəkkəb tibbi prosedurların icra olunmasına qədər treninqlər təşkil ediləcək. Treninqlər Avropanın və dünyanın qabaqcıl ölkələrində tibb mütəxəssislərinin ixtisaslaşması ilə məşğul olan mərkəzlərdə istifadə edilən ən qabaqcıl texnologiyaların istifadəsi ilə gündə 6 saat olmaqla müxtəlif qruplarda və səviyyələrdə aparılacaq. Fasilələr zamanı isə öyrədilən tibbi vərdişlərlə bağlı müzakirələr aparılacaq. Treninqlərdə istifadə ediləcək avadanlıq və ləvazimatlar Almaniya-Azərbaycan Tibb Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Tibbi Treninq Mərkəzi tərəfindən Avropadan gətirilib. Almaniya, İsveçrə və Türkiyədən dəvət edilmiş mütəxəssislərlə yanaşı, Azərbaycanın da bu sahədə təcrübəsi olan yüksək ixtisaslı mütəxəssisləri treninqlərə rəhbərlik edəcəklər. Konqres çərçivəsində, həmçinin tələbə, rezident və gənc həkimlərin cərrahiyə, onkologiya, radiologiya və qastroenterologiyanın aktual problemlərinə həsr edilmiş məruzələrindən ibarət forum keçiriləcək. Münsiflər heyətinin qərarı ilə 2-ci və 3-cü yerlərin sahibləri xüsusi mükafatlarla təltif olunacaq, 1-ci yerin qalibi isə Almaniyada biraylıq tibbi praktika keçmək imkanı qazanacaq. Bundan əlavə, forum zamanı Almaniyanın qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə simpozium təşkil olunacaq.

Türkiyənin Azərbaycandakı səfiri Alper Coşkun, almaniyalı professor Mixail Gebel, türkiyəli qonaqlar Mustafa Taşkın və Deniz Uyak çıxış edərək konqresin işinə uğurlar arzulayıblar, mütəxəssis hazırlığı və təcrübə mübadiləsi baxımından bu beynəlxalq tədbirin faydalı olacağını bildiriblər. Diqqətə çatdırılıb ki, həmçinin konqres ölkələrimiz və insanlarımız arasında mədəni və sosial əlaqələrin dərinləşdirilməsinə də töhfə verəcək. "Müasir Avropa ölkəsi olan Azərbaycanda inkişaf etmiş səhiyyə sisteminə şahidlik etmək Almaniyadan gələn qonaqlar üçün çox əhəmiyyətlidir. Bu konqres sayəsində Azərbaycanın mədəniyyəti və tarixi ilə tanış olmaq, yeni dostlar tapmaq və köhnə dostlarla əlaqələri möhkəmləndirmək şansı əldə edirik", - deyə almaniyalı professor Georg Kahler bildirib. Vurğulanıb ki, konqres təkcə Azərbaycan üçün deyil, ümumilikdə Avropada tibbin inkişafı, tibbi biliklərin mübadiləsi və yeni istiqamətlərin müəyyən edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Konqres paralel olaraq bölmə iclaslarında işini davam etdirib. Bölmələrdə əsasən cərrahiyyə, onkologiya və qastroenterologiya üzrə ən son yeniliklərə dair məruzələr dinlənilir, müzakirələr aparılır.

Konqres işini aprelin 25-də başa çatdırıb.

# TƏDRİS TERAPİYA KLİNİKASINDA NEFROLOJİ XİDMƏTİN TƏŞKİLİ

**Tədris terapiya klinikasında (TTK) Nefroloji xidmətin təşkili 2011-ci ildən başlayır. Klinikanın açıldığı ilk gündən Efferent Terapiya Mərkəzi fəaliyyətə başlamışdır. Mərkəzin yaradılması yeni olduğu üçün onun fəaliyyətinin təşkil olunmasına ehtiyac olmuşdur. İlk gündən TTK-nın direktoru, professor S.Musayevin qayğısı və köməkliyi ilə şöbədə Hemodializ, Hemofiltrasiya, Plazmaferez, Ozonoterapiya, Qanın ultrabənövşəyi şüalarla şualandırılması, Mərkəzi venalara kateterin yerləşdirilməsi, Böyrək biopsiyası əməliyyatları yerinə yetirilməyə başlanmışdır.**





Son illərdə müasir cihazların alınması hesabına yeni prosedurlar -davamedici veno-venoz hemodiafiltrasiya, davamedici veno-venoz hemodializ seansları da aparılmağa başlanmışdır. Tədricən aparılan proseduralara onların yeni -texnoloji cəhətdən daha mükəmməlləri əlavə olunmağa başlanmışdır. Məsələn, ilk zamanlar yerinə yetirilən sentrifuqa və membran plazmaferez prosedurları ilə yanaşı daha yeni və mükəmməl olan kaskad plazmaferezi aparılmağa başlanmışdır.

Müasir cihazların alınması hesabına mərkəzi venalara kateterin yerləşdirilməsi ultrasəs müayinəsinin nəzarəti altında aparılır. Bu da proseduranı fəsadsız, çox yüksək keyfiyyətlə həyata keçirməyə imkan verir. Eyni zamanda əvvəllər mümkün olmayan və başqa klinikalarda mərkəzi venalara kateterin yerləşdirilməsi həyata keçirilə bilməyən xəstələrə belə klinikamızda kömək etmək imkanı yaranmışdır.



Həyata keçirilən proseduralardan biri də böyrək biopsiyasıdır. Əvvəlki zamanlarda bu prosedurları aparmaq üçün xəstələrimiz xarici ölkələrə getmək məcburiyyətində qalırdılar. Klinikada aparılan hazırlıq işləri sayəsində ultrasəs nəzarəti altında böyrəyin punksiyon biopsiyası aparılmağa başlanmışdır və artıq 50-dən artıq xəstəyə əməliyyat müvəffəqiyyətlə həyata keçirilmişdir. Nailiyyətlərdən biri də böyrək biopsiyası ilə alınmış böyrək toxuması materiallarının histologiya kafedrasında professor E. Qasımovun rəhbərliyi ilə elektron mikroskopunun köməyi ilə subsellular səvyyədə öyrənilməsi diaqnozun dəqiqləşdirilməsində dünya səviyyəsnə yaxınlaşmaq mümkün olmuşdur. Bununla da respublika əhalisinin bu proseduranı aparmaq üçün xarici ölkələrə getməsinə heç bir lüzum qalmamışdır.

Mərkəzdə Tədris Cərrahiyyə klinikasında böyrək transplantasıyası aparılması üçün xəstələrin hazırlanmasına ba başlanmış və 8 xəstədə bu əməliyyat yerinə yetirilmişdir.

ETM-də bütün illər üzrə aparılan əməliyyatların sayı artmaqda davam edir: 2012-ci ildə 790 prosedura aparılmışdısa, 2013-cü ildə - 965, 2014-cü ildə - 1108 və 2015-ci ildə isə prosedurаların sayı 1372-yə çatmışdır.

Mərkəzin əməkdaşlarının fəaliyyəti nəticəsində klinikanın 12-ci mərtəbəsində Pulmonologiya, Allerqologiya və Nefrologiya şöbəsi yaradılmışdır. Bu şöbənin Nefrologiya bölümü nefroloqların əməyi sayəsində qurularaq fəaliyyət göstərir. Bölümdə sağlam və xəstə insanlara böyrəklərin fəalıyyəti və orqanizm üçün əhəmiyyəti, xəstəlik zamanı müalicə və profilaktika tədbirləri haqqında biliklərin genişləndirilməsi məqsədi ilə "Böyrək Məktəbi" yaradılmışdır.

Mərkəzin əməkdaşları fəal elmi araşdırmalar apararaq 1 metodik vəsait, 30-dan çox məqalə və tezis nəşr etmişdir. İspaniya, İsveçrə, İtaliya, Çexiya, Türkiyə, Fransa, Almaniya, Rusiya, Qazaxstan, Gürcüstan, Çin, Hollandiya, Boyük Britaniya kimi ölkələrdə Konqres və Konfranslarda iştirak edərək məruzələr etmişlər. Hazırda da Mərkəzdə genişmiqyaslı elmi araşdırmalar aparılır, elmi işçilərin, gənc mütəxəssislərin - nefroloqların yetişdirilməsinə böyük diqqət yetirilir.

Mərkəzdə çoxsaylı elmi Konfranslar, Konqreslər təşkil olunaraq keçirilmişdir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Baş Nefroloqu kimi professor Mehman Ağayevin rəhbərliyi ilə 2012 - 2016 -cı illərdə hər il respublikanın nefroloqlarının və müştərək sahə mütəxəssislərinin iştirakı ilə Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilmiş, böyrək xəstəliklərinin aktual problemlərinə həsr olunmuş məruzələr müzakirə edilmişdir.

29-30 noyabr 2013-cü il və 9-10 oktyabr 2015-ci ildə yüksək səviyyədə iki beynəlxalq miqyaslı tədbirlər I və II Azərbaycan-Türkiyə Nefroloji Konqresləri keçirilmişdir.

Nefroloji xidmətin Tədris Terapiya Klinikasında, o cümlədən respublikamızda inkişafına və təkmilləşdirilməsinə universitetimizin rəhbərliyinin və Səhiyyə Nazirliyinin köməyinin gündən-günə artması sayəsində bu sahənin inkişafı davam etməkdədir.

**Mehman AĞAYEV,**
*Səhiyyə Nazirliyinin Baş Nefroloqu, Efferent Terapiya Mərkəzinin pəhbəri, terapevtik və pediatrik propedevtika kafedrasının professoru*

**Mayın 24-də Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə elektron təbabət üzrə ümumrespublika elmi konfransı baş tutacaq. Burada tibb sahəsində İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqi ilə bağlı müxtəlif məsələlər müzakirə olunacaq. Konfransda İKT sahəsi ilə yanaşı, tibb elminin öncülləri, o cümlədən Azərbaycan Tibb Universitetinin nümayəndələrinin çıxışları da nəzərdə tutulub.**

# Azərbaycan Tibb Universiteti elektron təbabətə dair konfransa hazırlaşır

**AMEA nümayəndələri ilə görüşdə elmi konfransın detalları müzakirə olundu**



Aprelin 20-də konfransın təşkilat komitəsinin üzvləri Azərbaycan Tibb Universitetində oldular, universitet rəhbərliyi ilə bu geniş tədbirə hazırlıq işlərini müzakirə etdilər. Komitə üzvləri ilə görüşdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ölkəmizdə bu mövzuda elmi yığıncağın təşkilinin böyük əhəmiyyət daşıdığını dedi: “Belə bir tədbirin təşkili həm Azərbaycan təbabəti, həm də tibb təhsili üçün çox önəmlidir. Bu mövzu tibb sahəsində yeniliklərlə bağlı olduğundan, bizim üçün gələcəyə aparan bir yoldur”.

Tibb Universitetinin konfransın işində fəal iştirak edəcəyini bildirən professor G.Gəraybəyli qeyd etdi ki, ali məktəbin professorları öz məqalələrini elmi toplantıya təqdim edəcəklər. Rektor İKT sahəsində biliklərin artırılmasına ehtiyac olduğunu da söylədi:

“Etiraf edək ki, elektron təbabətin bir çox imkanlarından hələlik istifadə etmirik. Hazırda bizim ali məktəbdə elektron universitetin yaradılması üzrə işlər aparılır. Gələcəkdə ATU əməkdaşları üçün elektron təbabət üzrə təlimlərin keçirilməsi də istisna deyil”.

AMEA-nın akademik-katibi, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev isə görüşün təşkili üçün təşəkkürünü bildirərək konfransın məqsədləri haqqında məlumat verdi. Onun sözlərinə görə, ölkəmizdə İKT geniş tətbiq olunur: “Artıq elektron Azərbaycan formalaşır və e-hökumətin ayrı-ayrı seqmentləri ortaya çıxır. Bunlardan biri də elektron səhiyyədir. Tibb fəaliyyətində ayrı-ayrı sahələr üzrə virtual təbabətin geniş tətbiqi imkanları var. Konfransın məqsədi elektron tibbin bütün komponentlərinə diqqət cəlb etməkdən, bu sahədəki problemləri müzakirə etməkdən ibarətdir”.

Daha sonra konfransın formatı, davam etmə müddəti, çıxışçılar haqqında məlumat verildi. Qeyd edək ki, görüşdə ATU-nun prorektorları, kafedra və klinika rəhbərləri iştirak edirdilər.

# Həkimlərimizin yeni uğuru

**◆ Son illər ərzində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında müxtəlif xarakterli mürəkkəb əməliyyatların icra olunması ənənəyə çevrilib.**



Bu yaxınlarda həmin klinikada daha bir mürəkkəb əməliyyat uğurla həyata keçirilib. Belə ki, klinikanın həkimləri çənədə şişin götürülməsi, incik sümüyündən transplantat kimi istifadə etməklə çənə sümüyünün bərpası əməliyyatını aparıblar. 29 yaşlı xəstə üzərində aparılan bu mürəkkəb əməliyyat ATU-nun Tədris Cərrahiyyə Klinikasının iki böyük briqadasının birgə səyi nəticəsində uğurla başa çatdırılıb.

Xəstə klinikaya 1 il öncə müraciət edib. Həmin vaxt aparılan biopsiya nəticəsində ona çox nadir hallarda rast gəlinən “Ameloblastk sarkoma” diaqnozu qoyulubmuş. Cərrahiyyə əməliyyatı zamanı çənənin sol bucağı nahiyəsini əhatə edən şiş toxuması və onun təxminən 1,5 sm sərhədində rezeksiya əməliyyatı aparılıb. Mövcud defekt rekonstruktiv titan lövhə ilə aradan qaldırılıb. Əməliyyatdan sonrakı dövrdə xəstə nəzarət altında saxlanılıb.

Lakin son 2 həftədə xəstədə əməliyyat sahəsində yenidən kəskin ağrılar üzə çıxıb. ATU-nun ağız və üz-çənə cərrahiyyəsi şöbəsininin müdiri t.ü.f.d. Məhəmməd Davudovun sözlərinə görə, aparılan kliniki və radioloji müayinə nəticəsində xəstədə şişin yenidən əmələ gəlməsi - “Recurrence tumor” aşkar olunub. Cərrah bu haqda verdiyi müsahibədə demişdir:

“Əldə olunan nəticələr təhlil olunduqdan sonra konsilium nəticəsində cərrahiyyə əməliyyatının aparılmasına qərar verildi. Bu dəfə əməliyyat daha geniş həcmdə, şiş toxumasının götürülməsi, qalıq çənə sümüyü seqmentlərinin bir qədər də geniş rezerksiyası və defektin sonrakı müalicədə həm radioterapiya, həm kimyəvi dərman müalicəsinin aparılma riskinin yüksək olduğunu nəzərə alaraq, xəstədə sərbəst damar ayaqcıqlı sümük dilimindən istfadə olunması planlaşdırıldı. Bu məqsədlə biz plastik və rekonstruktiv cərrahiyyə mütəxəssisləri ilə birgə komanda şəklində bu əməliyyatın aparılmasına qərar verdik”.

Plastik-rekonstruktiv cərrah, uzman həkim Dilqəm Məmmədovun sözlərinə görə, birlikdə icra olunan əməliyyatın müddəti orta hesabla 6-7 saat çəkib: “Bu zaman 2 əməliyyat briqadası eyni vaxtda çalışırdı. Əvvəlcə birinci briqada çənə nahiyəsində residiv verən şişin - yəni “Recurrence tumor”un rezerksiyasını həyata keçirdi. Daha sonra isə biz incik sümüyündə hazırlanmış sərbəst damar ayaqcıqlı flebin (incik sümüyü transplantatının) qaldırılması ilə məşğul olduq. Bu işləmlər bitdikdən sonra həmin flebin çənə sümyünə qoyulması və boyundakı damarlarla bir yerdə tikilməsi əməliyyatı icra olundu”.

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 2-də)

tələbləri ilə tənzimlənir” – deyən tibb xidməti polkovniki diqqətə çatdırdı ki, fakültənin şəxsi heyəti daimi və dəyişən heyətdən ibarətdir, əsas tədris bölümü həkim hazırlığı kursudur. Daimi heyət Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət keçən, hərbi ixtisası üzrə stajı 5-7 ildən az olmayan, müvafiq təhsilə və hazırlığa malik zabitlərlə Müdafiə Nazirinin əmri əsasında komplektləşdirilir.



Fakültənin maddi-texniki bazasının yüksəldilməsi, beynəlxalq əlaqələri, kadr hazırlığı, tələbələrin ilkin mənimsəmə və keyfiyyət göstəriciləri, tədris-metodiki, elmi-tədqiqat və müalicə-profilaktika işlərində əldə edilən müsbət nəticələrə və digər məsələlərə də toxunan F.Ağayev çıxışının sonunda fakültənin kollektivi adından elmi şuranın üzvlərini əmin etdi ki, onlar bundan sonra da bütün bilik və bacarıqlarını yüksək ixtisaslı mənəvi cəhətdən saf, milli dövlətçiliyimizə sədaqətlə xidmət edən, vətənsevər hərbi həkim mütəxəssislərin hazırlanmasına sərf edəcəklər.

Məruzə ətrafında çıxış edən sitalogiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov Hərbi Tibb Fakültəsində nailiyyətlərlə yanaşı, tələbələrin hazırlığında təməl fənlərdən müəyyən çətinliklərin olduğunu söylədi: “Bu fakültəyə tələbələr nisbətən aşağı ballarla girirlər. Aşağı balla qəbul olan tələbələrin təməl fənlərdən yüksək nəticələr göstərə bilməməsi təbiidir. Testin tətbiqi ilə əlaqədar problemlər bir qədər azalsa da, yenə qalmaqdadır. Bir faktı demək istəyirəm. Qış imtahan sessiyası müddətində bütün fakültələr üzrə imtahan verən 896 tələbədən kəsilənlərin sayı 1,3 faiz, cəmi 12 nəfərdir. Ancaq Hərbi Tibb Fakültəsində imtahan verən 90 nəfərdən kəsilənlərin sayı 14 faizdir. Yəni bu fakültədə imtahanlardan kəsilənlərin sayı yerdə qalan fakültələrdə imtahanlardan kəsilənlərin sayından 2 nəfər artıqdır”.

Fakültədə təkcə zəif oxuyan tələbələrin deyil, yaxşı oxuyan tələbələrin də olduğunu deyən kafedra müdiri dekanlığın fəaliyyətindəki operativliyi müsbət qiymətləndirərək, kafedradan olan istənilən narazılığın nəzərə alındığını, davamiyyətində, davranışında nöqsana yol verən tələbələr haqqında dərhal ölçü götürüldüyünü bildirdi.

Hərbi terapiya kafedrasının rəisi, tibb xidməti polkovniki Saqil Məmmədov çıxışında qəlbimizdə yara bağlayan Qarabağ probleminin həllində güclü ordunun həlledici amil, kadr hazırlığının isə ordu quruculuğunda başlıca şərt olduğunu başa düşən kafedra əməkdaşlarının öz vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışdıqlarını söylədi.

Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev də fakültədə istər nəzəri, istər praktiki, istərsə də elmi əhəmiyyətli çox təqdirəlayiq işlər görüldüyünü diqqətə çatdırdı. O, son illərdə, xüsusilə son 2 ildə tədrisin nəzərəçarpacaq dərəcədə yüksəlməsini fakültə rəhbərliyinin kafedralarla sıx təmas qurması ilə əlaqələndirərək Hərbi Tibb Fakültəsinin və Hərbi Tibb Məktəbinin say tərkibini artırmaq üçün gləcəkdə müvafiq dövlət qurumlarına müraciət olunmasını, eyni zamanda tədris saatlarının azaldılmamasını təklif etdi.

HTF-nin tibbi profilaktika kafedrasının rəisi, tibb xidməti polkovniki Fərhad Meybəliyev hal-hazırda Silahlı qüvvələrdə aparılan islahatlar, tibbi təminatın təşkili, sanitariya-gigiyenik və əksepidemik tədbirlərin aparılmasına dair yeniliklərin tədris zamanı kursantlara və dinləyicilərə çatdırıldığını dedi.

Müzakirələri yekunlaşdıran rektor çox maraqlı bir məruzə dinlədiklərini vurğuladı və diqqəti bu ayın əvvəlində ön cəbhədə baş verən hərbi hadisələrə yönəltdi. Cəmiyyətdə əvvəlki illərdən fərqli olaraq böyük rüh yüksəkliyinin yaranması baxımından bu gün müzakirə olunan məsələnin aktuallığını önə çəkən universitet rəhbəri bildirdi ki, ölkədəki vətənpərvərlik ab-havası təkcə hərbi xidmətdə olan insanlara deyil, tələbələrimizə, gənclərimizə, bütövlükdə hər birimizə məxsusdur.

Professor G.Gəraybəyli 25 ildən çox yaşadığımız müharibə şəraitində hərbi tibb fakültəsinə xüsusi ehtiyac duyulduğunu şura üzvlərinin diqqətinə çatdırdı: “Burada deyildiyi kimi, Sankt-Peterburq Tibb Akademiyası və Gülhanə Tibb Akademiyası çox böyük tarixə və reytinqə malik olan hərbi tibb ocaqlarıdır. Arzu edərdim ki, bizim də universitetin Hərbi Tibb Fakültəsi və bu fakültənin reytinqi gələcəkdə adları çəkilən məşhur tibb ocaqları ilə eyni səviyyədə dayansın. Elə bu günkü məruzədə də göstərildi ki, həmin fakültə üçün istər Tibb Universiteti, istəsə də Müdafiə Nazirliyi tərəfindən yaradılmış şərait müasir tələblərə cavab verir. Yaxşı yadımızdadır ki, bu fakültəyə ilk dəfə qəbul olunan tələbələrin səviyyəsi indiki tələbələrin səviyyəsindən nə qədər fərqli idi. Mən də uzun illər ərzində bu fakültədə mühazirə demiş, imtahan qəbul eləmişəm. Çox yaxşı xatırlayıram ki, əvvəlki illərdə tələbələrin hazırlıq səviyyəsi qənaətbəxş deyildi. Məndə olan məlumata görə, ötən imtahan sessiyalarının birində bu fakültədə kəsirlər çox oldu. Hətta elmi şuranın qərarı ilə biz onlara istisna hal kimi ikinci dəfə imtahan vermək imkanı yaratdıq. Bu isə əslində əsasnaməyə ziddir. Ancaq son illərdə vəziyyət tamamilə dəyişib. Hesab edirəm ki, bu istiqamətdə hələ daha çox işlər aparılmalı, Hərbi Tibb Fakültəsi universitetin ən qabaqcıl fakültəsinə çevrilməlidir.”

Fakültəyə qəbul sayının azaldılmasını təbliğat işinin zəif qurulması ilə əlaqələndirən rektor hətta rayonlarımızda çalışan bəzi həkimlərin universitetimizdə belə bir fakültənin mövcudluğundan xəbərsiz olmasını təəssüflə dilə gətirdi. Əminliklə bildirdi ki, cəmiyyətdə vətənpərvərlik ruhunun artması şəraitində bu fakültəyə cəlb olunmaq istəyən tələbələrin sayı artır və artacaq da. Qarşımızda duran əsas vəzifə də professional hərbi tibb kadrları hazırlamaqdan ibarətdir.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ,**
**Fotolar Cənnətalı Çingizindir**

Mən ATU-nun ümumi cərrahlıq kafedrasının müdiri, əməkdar həkim tibb elmləri doktoru, professor Hacı Çərkəz Məmiş oğlu Cəfərovu onun "Etiraf" kitabını oxumamışdan hələ çox əvvəl ustad bir cərrah, geniş intellektli ziyalı, bacarıqlı təşkilatçı kimi tanıyırdım. Onu da bilirdim ki, ədəbiyyatla "dostluğu" var. Mərhum xalq şairi M.Arazı çox sevir. Ancaq bu kitab məndə belə bir təəssürat yaratdı ki, Çərkəz müəllim yaxşı qələm sahibidir, hətta, mən deyərdim ki, gözəl təhkiyəsi var. Lap yazıçı kimi hadisələri təsvir etmək, oxucunun gözü qarşısında tam obraz yaratmaq dərəcəsində mükəmməl üsluba malikdir.

# Müdriklik zirvəsinin etirafları




Kitab Azərbaycanın tarixinə qısa nəzərlə başlayır və 9 bölməyə ayrılıb. Həmin bölmələrdən biri də "Ümumi cərrahlıq kafedrasının təşkili" bölməsidir. Müəllif burada ADR-in yaranmasını xalqımızın tarixi uğuru hesab edir, BDU-nun, onun tərkibində tibb fakültəsinin təşkilini böyük mədəni-elmi hadisə adlandırır. Ali təhsilin, həmçinin tibb təhsilinin təşkili və inkişafında müstəsna rol oynayan Rusiyadan dəvət olunmuş V.İ.Kazımovski, İ.İ.Şirokoqorov, F.N.İlyin, B.K.Finkelşteyn, A.İ.Okinçeviç, D.N.Belenkiy və b. haqqında səmimi və qısa məlumat verir, kafedrada yetişən və onun təşkilində, inkişafında əmək sərf etmiş milli kadrlar barədə məhəbbətlə danışır. Kitabın "Kafedra ilə tanışlıq" bölməsində Çərkəz müəllim tələbəlik illərində ümumi cərrahlıq kafedrasına aid təəssüratlarını bölüşür, həm də tibbə olan həvəsin yaranmasında böyük qardaşı Əkbərin rolunu rəğbət hissi ilə xatırlayır, onun bir qardaş kimi köməyindən məhəbbətlə söz açır. Müəllif yazıb-oxuya bilməyən valideynlərinin təhsilə olan sevgisindən də ehtiramla danışır. O yazır: "Mən orta məktəbdə oxuyanda atam tez-tez məktəbə gələrdi, müəllimlərdən mənim oxumağım barədə soruşardı, hətta sinfimizə girib, arxada oturub mənim cavablarıma qulaq asardı". Yeri gəlmişkən, deyim ki, valideynin uşağın təhsili ilə maraqlanması, bu işə ciddi yanaşması uşaqların sonrakı taleyində müstəsna rol oynayır. Mən bunu sinif yoldaşlarımın, xüsusən rəhmətlik kimya elmləri doktoru, professor Bəybala Həsənovun taleyində əyani olaraq müşahidə eləmişəm. Bunu Çərkəz müəllim və onun qardaşlarının timsalında da görmək olar.

Kitabın bu hissəsində müəllif ümumi cərrahlıq fənnindən dərs deyən müəllimlərini ehtiramla xatırlayır.

Kitabın tərtibatı və mövzuların yerləşdirilməsi baxımından, bəlkə də, xırda düzəlişə ehtiyac olsa da, amma dil və üslubun təbiiliyi, hadisələrin təsvirindəki səmimiyyət, hər şeydən əvvəl ana dilinə bələdlik səviyyəsi onu oxunaqlı edir, necə deyərlər, su kimi içilməsinə şərait yaradır. Bu mənada "Leninqrada ezamiyyət", "Moskvaya ezamiyyət", "Ümumi cərrahlıq kafedrası 1970-1994-cü illərdə", "Azərbaycanın sonrakı müsibətləri", "Kafedranın yeni rəhbəri" adlı fəsillərini birnəfəsə oxuyursan. Bu hissələri Çərkəz müəllim, doğrudan da, bir yazıçı qələmi ilə əsl ilhamla, bir sıra özünəməxsusluqla yazmışdır.

Kitabın həyəcansız oxunması mümkün olmayan səhifələrindən biri doktorluq mövzusunun və onun zirvə nəticəsi hesab edilən süni protezin xəstə üzərində sınaqdan keçirilməsi hadisəsinin təsviridir. Çərkəz müəllim öz başına gələn, gələcəyi üçün "olum – ölüm" əhəmiyyətli bu prosesi elə obyektiv, kənardan baxan adam kimi canlandırır ki, sanki gərgin konfliktli bir dramatik əsər oxuyursan.

Kitabın belə maraqlı səhifələri yetərincədir. Xüsusən kafedranın yaşlı, cavan əməkdaşları haqqında qısa oçerklər, ümumi cərrahlığın nəzəri və əməli problemlərinə, kafedranın əvvəlki və sonrakı fəaliyyətinə həsr olunmuş bölmələr, hissələr Çərkəz müəllimin işinə həvəs və məsuliyyətindən, müəllimlərinə və yoldaşlarına olan səmimi, təmənnasız münasibətindən xəbər verir. Çərkəz müəllim yeri gəldikcə onun püxtələşmiş cərrah, yetkin ziyalı, vətəndaş kimi yetişməyində ən kiçik köməyi, məsləhəti olan insanlara minnətdarlığını ifadə edir, gənclərə də tövsiyəsi bu olur ki, müəllimlərinə, yaxşılığı keçən hər kəsə hörmətlə yanaşsınlar, dikbaşlıq etməsinlər. Bir oxucu, gənclərin yetkin şəxsiyyət kimi yetişməsində müəyyən uzunmüddətli əməyi olan bir şəxs kimi bu kitabın mənə xoş gələn, necə deyərlər, ürəyimdən tikan çıxaran cəhətlərindən biri də budur. Bu mənada akademik A.Namazova, akademik Ə.Əmiraslanov, professor N.Rzayev, professor V.Şadlinski, professor B.Aşurov, dosent İsa Qurbanəliyev, dosent H.Bağırov, dosent M.Kərimov və başqaları haqqında yazılanları oxucu dərin razılıq hissi ilə qarşılayır.

Ümumiyyətlə, haqqında danışdığım kitabda insanı dərindən düşündürən, vətəndaş kimi həyəcanlandıran məqamlar çoxdur. Məsələn, Qarabağ döyüşlərində müəllifin bir cərrah kimi fəaliyyətini, ağır əməliyyatdan sonra sağalıb xidmətə qayıtmış əsgərlə təsadüfi görüş səhnəsini həyəcansız oxumaq olmur. Kafedraya rəhbər seçiləndən sonra baş verən anlaşılmazlıqlar, onların ədalətlə aradan qaldırılması, əməkdaşlara müəllim, ağsaqqal, rəhbər kimi qayğı və tələbkarlıqla yanaşılması ilə bağlı olan hadisələr hər kəs üçün ibrət çıxarmalı nümunələrdir. Kitabda Çərkəz müəllim Azərbaycan ictimai həyatında və onun səhiyyəsində baş vermiş və verməkdə olan hadisələrə, xüsusən milli cərrahlığımızın inkişafı və gələcəyi ilə əlaqədar olaylara öz prinsipial mövqeyini bildirir, bir vətəndaş kimi narahatlığını oxucunun diqqətinə çatdırır. Kitabın son səhifələrində müəllif 50 illik həkimlik həyatında rastlaşdığı xoş və xoş olmayan olayları yada salır, xalqımızın keçdiyi çətin müstəqillik yollarına nəzər salır, ATU-nun, ölkəmiz üçün müstəsna yeri olan, ümumi cərrahlıq kafedrasının uğurlarını xatırladır, öz səmimi etiraf və minnətdarlıqlarını dilə gətirir.

Əlbəttə, 200 səhifədən çox olan kitab haqqında bir qəzet məqaləsində tam təəssürat yaratmaq çətindir. Ona görə professor Çərkəz Cəfərovun dostları, tanışları, tələbələri, ümumilikdə hər kəs üçün bu kitabın çox maraqlı olacağını bildirir və müəllifə cansağlığı və elmi-publisistik fəaliyyətində uğurlar diləyirəm.

**Akif MİRİYEV,**
*Azərbaycan dili kafedrasının müdiri, dosent*

# Stomatologiya fakültəsində TEC-in konfransları keçirilib

Hər il universitetimizin fakültələrində ənənəvi olaraq Tələbə Elmi Cəmiyyətinin konfransları keçirilir. Bu məqsədlə aprelin 18- də Stomatologiya fakültəsində TEC-in növbəti XXXXIII konfransı keçirilib.



Xarici dillər bölməsi üzrə konfransı açan Fakültə TEC-in elmi rəhbəri, təşkilat komitəsinin sədr müavini, dosent Ə.Hacıyev ilk öncə erməni hərbi birləşmələrinin sərhədyanı bölgələrdə törətdiyi təxribata toxunub. Və bu qazanılmış qələbəni xalqımızın böyük əhvali-ruhiyyə ilə qarşıladığını bildirib. Sonra konfrans iştirakçıları torpaqlarımızın müdafiəsi zamanı qəhrəmancasına şəhid olan əsgər və zabitlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə kafedranın müəllimi, şairə İradə Rzanın şəhid anaların ithaf etdiyi şeir böyük coşquyla qarşılanıb.

Sonra söz məruzəçi tələbələrə verilib. Konfransa 25 tələbənin məruzəsi daxil edilsə də, onlardan 23 tələbənin 20 ingilis,1 fransız və 2 alman dili üzrə məruzəsi dinlənildi.

Tələbələr məruzələrini sərbəst və səlist dildə etdilər. Diskussiya



şəraitində keçən müzakirələr zamanı münsiflər heyətinin gəldiyi nəticələrə görə ingilis dili üzrə I kurs tələbələri Cümşüd Vəlizadə və Arzu Nəsibova, II kurs tələbələri Hafizə Abbaszadə və Afina Süleymanova, alman dili üzrə isə I kurs tələbəsi Zaur Vəlizadə diploma layiq görülərək 2-ci turda iştirak etmək üçün şans qazanıblar. Qalan iştirakçılara isə sertifikatlar təqdim edilib.

Konfransın sonunda Ə.Hacıyev xarici dillər kafedrasında TEC-in işinin yaxşı təşkilinə görə kafedranın müdiri, filologiya elmləri doktoru, professor Z.Məmmədovanın və TEC-in rəhbəri dosent R.Hüseynovanın zəhmətini yüksək qiymətləndirib, məruzəçilərə və onların elmi rəhbərlərinə minnətdarlığını bildirib.

* * *

Aprelin 19-da isə ATU-nun Stomatoloji Klinikasında kliniki bölmə üzrə fakültənin Tələbə Elmi Cəmiyyətinin XXXXIII konfransı keçirildi.

Konfransı stomatologiya fakültəsinin dekanı, təşkilat komitəsinin sədri, professor Zöhrab Qarayev açdı. Əvvəlcə torpaqlarımızı azad etmək uğurunda şəhid olan qəhrəman oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Professor Z.Qarayev tələbə və gənc həkimlərin 1-ci və 2- ci Beynəlxalq tibb konqrensləində stomatologiya fakültəsi tələbələrinin layiqli yerlər tutduqlarını vurğulayaraq, bu gün ilk addımlarını atan gələcəyin elmi tədqiqatçılarına uğurlar arzuladı.

Kliniki bölmədə 11 məruzə dinlənildi. Məruzələrin hamısı kliniki xüsusiyyətli olub stomatologiyanın aktual problemlərinə həsr olunmuşdu. Konfransda terapevtik stomatologiya üzrə 3, ağız və üz- çənə cərrahiyəsi üzrə 3, uşaq stomatologiyası üzrə 3, ortopedik stomatalogiya üzrə 2 məruzə dinlənildi. Məruzəçi tələbələr hazırlıqlı, məsuliyyət hissi ilə, sərbəst çıxış edərək, kliniki materiallarını əyani surətdə kompyuter görüntüləri ilə nümayiş etdirərək, verilən suallara düzgün cavab verdilər.



Münsiflər heyətinin rəyinə əsasən məruzəçilərdən Aytac Qurbanova, Aynur Əhmədova, Günay Sadiqovanın çıxışları fərqlənərək diplomlara, Leyla Paşayeva, Rəhim İsayev, Əminə Aslanlı, Zöhrab Hacıyev, Həsən Həsənli, Fidan Abbasova, Nadir Bağırzadə, Tuğra Musayeva isə sertifikatlara layiq görüldülər.

Konfransda professor R.Əliyeva, professor Ç.Rəhimov, t.ü.e.d. A.Səfərov, professor Ə.Talışinski və başqaları məruzəçi tələbələrə müəyyən iradlarını bildirməklə bərabər, lazımi tövsiyə və məsləhətlərini də verdilər.

Sonda sədr münsiflər heyətinə, elmi rəhbərlərə və məruzəçilərə uğurlar diləyərək, bölmədə fərqlənən məruzələrin "Tələbə və gənc həkimlərin növbəti Beynəlxalq Tibb konqresi"nə təqdim olunacağını vurğuladı.

**M.ƏLƏKBƏRLİ**

# Yaddaşlarda yaşanan ömür

## O, elə bir zirvə idi ki, səviyyəsi vəzifəsindən qat-qat yüksəklərdə dururdu.

*Xidmət etmək sayılır kişilikdən nişana,*
*Xalqına xidmət etmək bir şərəfdir insana.*

**Nizami Gəncəvi**



◆ **Bu il mayın 14-də nurlu siması, xeyirxah əməlləri, saf əqidəsi ilə adı Azərbaycan xalqının və vətən təbabəti tarixində qızıl hərflərlə yazılmış, Azərbaycanda gigiyena elminin inkişafında böyük zəhməti olmuş, görkəmli səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor, akademik Vəli Yusif oğlu Axundovun anadan olmasının 100 illiyi tamam olur.**

V.Axundov 1916-cı il mayın 14-də Bakının Saray kəndində anadan olmuşdur. 1923-cü ildə Saray kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1929-cu ildə oranı bitirmişdir. Biləcəri stansiyasındakı fabrik, zavod məktəbində 1931-ci ilə kimi təhsilini davam etdirmişdir. 1931-ci ildə sənət məktəbini bitirib, Bakı Sənaye texnikumuna daxil olmuşdur. 1935-ci ildə texnikumun kimya şöbəsini bitirib, kimyaçı texnik peşəsinə yiyələnmişdir. Ali təhsil almaq müqəddəs arzusu olduğu üçün o, əvvəlcə Azərbaycan Sənaye İnstitunun hazırlıq kursunda oxumuş, sonra isə fikrini dəyişib, 1937-ci ildə Azərbaycan Tibb İnstituna (indiki ATU) daxil olmuşdur. İnstitutda təhsil almaqla yanaşı, Azərbaycan Tibb İnstitunun ictimai elmlər kafedrasının laborantı, "Tibbi kadrlar uğrunda" qəzetin redaktoru və komsomol komitəsinin katibi vəzifələrində çalışmışdır. İlk anlardan başlayaraq onun istedadını görüb ictimai-siyasi işə cəlb etmişdilər. Tələbələrin təlim-tərbiyəsində mühüm rol oynayan "Tibb kadrları uğrunda" qəzeti gəncləri vətənpərvərlik tərbiyəsinə çağıran yazılarla diqqəti cəlb edirdi. Bütün bunlar onun gələcəkdə yüksək vəzifələrdə olacağına dəlalət edirdi. İllərlə gənclərə vətənpərvərlik hisləri aşılayan Vəli Axundov elə buna görə də ön cəhbəyə təyinat alanların ilk çağırışçılarından oldu. 1941-ci ildə institutu bitirərək Böyük Vətən Müharibəsinin başlanması ilə əlaqədar orduya çağırılmış və orduda həkimlik fəaliyyətini davam etdirmişdir. 20-ci atıcı diviziyanın tərkibində qısa bir müddətdə ad-san qazanmış və bu istedadlı həkimin qabiliyyətini nəzərə alaraq onu xüsusi tibbi-sanitar batalyonunun komandiri vəzifəsinə təyin etmişlər. Rusiyada, Belarusiyada, Çexslovakiyada, Almaniyada gedən döyüşlərdə iştirak edib, təltif olunmuşdur.

1946-cı ildə ordudan tərxis olunduqdan sonra Azərbaycan Tibb İnstitutunda tibb tarixi kafedrasına assistent vəzifəsinə qəbul edilmişdir. Sonra o, Azərbaycan Tibb İşçiləri Həmkarlar ittifaqı Respublika Komitəsinin sədri seçilmiş və 1949-cu ilə kimi bu vəzifədə çalışmışdır.

V.Axundovun aşıb-daşan təşkilatçılıq qabiliyyətini nəzərə alaraq 1949-cu ildə onu Azərbaycan SSR Səhiyyə nazirinin müavini, 1952-ci ildə isə Bakı Vilayət səhiyyə şöbəsinin müdiri təyin edirlər. 1953-cü ildə qısa bir müddət ərzində Q.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktor əvəzi işlədikdən sonra Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsinin müdir müavini işləmişdir. Tükənməz enerjiyə malik olan V.Axundovu 1954-cü ildə Azərbaycan SSR səhiyyə naziri təyin edirlər və o, 1958-ci ilə kimi bu vəzifədə çalışır. 1958-ci ilin fevral ayında o, KP MK katiblərindən biri olur, iyul ayında isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri seçilir. 1959-cu ildə KP MK-nin IX plenumunda Vəli Axundov ömrünün 43-cü baharında Azərbaycan KP MK-nin 1-ci katibi seçilir.

Bu vəzifədə Vəli Axundov 10 il-1969-cu ilin iyul ayının 14-ə kimi işləmişdir. 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmiş və 1969-cu ildən 1972-ci ilə kimi akademiyanın vitse-prezidenti olmuşdur.

Vəli Axundov 1972-ci ildən ömrünün sonuna qədər – 1986-ci ilin avqust ayının 22-ə kimi Q.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena institunun direktoru olmuşdur. SSRİ Ali Sovetinin (6-7-ci çağırış ), Azərbaycan SSR Ali Sovetinin (4-7-ci çağırış) deputatı olmuşdu. Lenin ordeni, Qırmızı ulduz, 2-ci dərəcəli vətən müharibəsi və bir sıra medallarla, ordenlərlə təltif edilmişdir. Onun elmi fəaliyyətinə qəldikdə isə o, yüksək vəzifələrdə işləməsinə baxmayaraq, həmişə elmi axtarışlarda olmuşdur.

1955-ci ildə "Azərbaycan SSR-nin Kirovabad (indiki Gəncə) şəhərinin sanitar-epidemioloji xarakteristikası" mövzusunda namizədlik, 1964-cü ildə isə "Bakı Şəhərinin Neft rayonlarının Sanitar-Epidemioloji xarakteristikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ona 1966-cı ildə professor elmi adı verilmişdir.

Onun qələmindən 300- dən artıq elmi məqalə, 6 monoqrafiya, 11 elmi-kütləvi kitabça çıxmışdır. Rəhbərliyi altında 4 doktorluq, 5 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Vəli Axundovun gigiyena sahəsindəki nailiyyətlərini zamanın ən dəyərli əsərlərindən hesab etmək olar. Onun apardığı tədqiqatlar nəinki Azərbaycanda, SSRİ-nin bir çox respublikalarında da tibbin müvafiq sahələrinə tətbiq olunurdu.

Doktorluq dissertasiyasındakı praktik təkliflər Neft emalı sənayesində xüsusi əhəmiyyət kəsb edirdi. O, gigiyenik-epidemioloji tədqiqatların aparılması üçün kibernetika laboratoriyası təşkil etmişdi. İnstitutun əməkdaşlarının ingilis dili öyrənmələri üçün xüsusi kurslar təşkil etdirmişdi və ingilis dilində institutda konfranslar keçirilirdi. Onun xidmətlərindən biri də institutun əlavə binasının tikilməsi idi. İnstituta Q.Musabəyovun adının verilməsi də onun təşəbbüsü ilə olmuşdur. Hər ilin sonunda institutda ölkə və SSRİ miqyaslı konfranslar keçirilərdi. V.Axundov SSRİ Tibb Elmləri Akademiyasında gigiyena üzrə problem komissiyasının üzvü olmuşdur. Ümumittifaq Elmi Tibbi-Texniki İdarənin, Beynəlxalq Tibbi Assosiasiyasının, Sovet Milli Komitəsinin üzvü olmuşdur. Azərbaycan gigiyenistlərinin və sanitar həkimlərinin elmi praktik cəmiyyətinin sədri kimi uzun illər fəaliyyət göstərmişdir.

Bir neçə kəlmə də onun nə qədər böyük şəxsiyyət olduğu barədə qeyd etmək istəyirəm. Vəli müəllimin əməksevərlilik və insanlıq ləyaqəti nümunəsi olan ömür yolu isə nəinki gənc həkimlərə, hətta bütün gənclərə örnək ola bilər.

Dünyaya bir dəfə gələn insan öz əqidəsi, əməli, əməyi, həyat tərzi, insanlara münasibəti və əxlaqi dəyərləri ilə özünü təsdiqləyir. Deyilənlər bəzi insanları həyatdan köçən kimi unutdurur, bəzilərini isə əbədi olaraq yaddaşlarda saxlayır. Məhz xeyirxahlığı, şərəfli əməyi, insanlara olan hörməti, ləyaqəti, səxavəti, kişiliyi ilə fərqlənən, xalqına, vətəninə sevgisi, qohum-əqrabasına, dostlarına olan məhəbbəti ilə yadda qalan, xalqının, vətəninin yolunda əlindən gələni etmiş şəxsiyyətlərdən biri olmuşdur. Dünyada yer kürəsini işıqlandıran günəşdir. Lakin elə insanlar vardır ki, ömür yollarında çıraq kimi yanıb, qəlbləri ilahi nuru ilə doldurur, əməlləri ilə haqqı bayraq edib, şölə saçır. Minilliklər boyu Azərbaycan torpağı təkrarolunmaz müdriklər, təbiblər, şairlər, alimlər yetirmişdir. Bu insanlardan biri də öz xeyirxahlığı, nəcibliyi, zəngin mənəvi dünyası, fitri istedadı, dərin zəkası, təvazökarlığı, alicənablığı ilə insanlarda özünə qarşı rəğbət yaradan Vəli müəllim idi. Bu böyük şəxsiyyətdən dərs almaq, onun yaxını olmaq, bir binada işləmək mənə də qismət olmuşdur.

Mənim onunla ilk tanışlığım 1976-cı ilin sentiyabrında olmuşdur. Epidemiologiya kafedrası onun direktor olduğu institutun 1-ci mərtəbəsində yerləşirdi. İnstitutda əmək intizamına ciddi riayət olunurdu. Heç kim boş-boşuna dəhlizdə gəzə bilməzdi. Yalnız fasilədə müəyyən adamları dəhlizdə görmək olardı. Əməkdaşlar üçün dəhlizin bir kənarında tenis stolu qoyulmuşdu. Fasilələrdə və işdən sonra kim istəyirdi oynayırdı. Səliqə-sahmanlı insan olduğu üçün institutda xüsusi guşələrdə alimlərin portretləri asılar, elmin yeni nailiyyətləri haqqında məlumatlar verilərdi.

Bütün mərtəbələr gül-çiçəklə bəzədilmişdi. İnstitutun vivarisi nəinki Azərbaycanda, keçmiş SSRİ-də müvafiq institutların əməkdaşları tərəfindən həmişə təriflənirdi. İnstitutun yeməkxanası səliqə-səhmanı və bişirilən xörəklərin keyfiyyəti ilə fərqlənirdi. Bir sözlə, institutun binasına daxil olduqda ilk baxışdan buranın rəhbərinin böyük zövq sahibi olduğu hiss olunurdu.

İşimlə əlaqədar olaraq institutun vivarisindən istifadə etmək üçün ondan icazə almalı idim. İşin axırı olduğuna görə katibə səhəri gün gəlməyimi məsləhət gördü. Aşağı kafedraya düşərkən katibə məni geri çağırıb dedi ki, Vəli müəllim sizi gözləyir. İçəri daxil olub salam verdikdən sonra o, mənə "əyləşin" dedi. Mən ona epidemiologiya kafedrasının assistenti olduğumu və elmi işimlə əlaqədar vivaridə işləmək istədiyimi söylədim. O məni ətraflı dinlədikdən sonra vivarinin müdirini yanına çağırtdırdı, mənim orada işləməyimə icazə verdiyini bildirdi. Mənimlə təxminən yarım saat söhbət etdi və ruhu qarşısında başımı əydiyim müəllimim, əməkdar elm xadimi, professor Tağı Tağızadənin gözəl insan, böyük alim, çox böyük təşkilatçı olduğunu söylədi. Bu böyük şəxsiyyətin mənə "siz" deyərək müraciət etməsindən təəccüblənmiş və ilahinin zahirinə naxış çəkmiş bu kişinin insanın ən ali məsləki olan tərbiyəsinə heyran qalmışdım. Azərbaycanda elmi işimin əsasının professor T.Tağızadə tərəfindən qoyulduğunu dedi və çox bəyəndi. "Nə çətinliyin olsa, yanıma gəl" dedi. Sonralar onunla yaxın münasibətim oldu. Poeziya vurğunu olmağım xoşuna gələrdi. Mənim də həyatımda onun xidmətlərindən istifadə etdiyim məqamlar olub. Onu dinlədikcə insanın qəlbinə bir rahatlıq gələrdi, həzin səsiylə, güclü məntiqilə adamı heyran edərdi.

Allahın bəşər övladına bəxş etdiyi vəzifələrin ən böyüyü insanlıqdır. İnsan deyilən varlıq doğulub dünyaya gəlir, uşaqlıq, gənclik dövrü keçirir, sevir-sevilir, ailə qurur, yaşa dolur, cahan teatrı dediyimiz bu dünyanın tamaşaçısı olur və dünyadan köçür. Dünya bərqərar olandan belə olmuş və belə də olacaqdır. Qalan əməllərdir. Onun əqidəsi qışda çiçəkləyən güllərə bənzərdi, çünki o əqidədə halallıq, saflıq, paklıq var idi, bu əqidə mərdlik dünyasının zirvələrində dayanan kişilik rəmzi idi. O, elə bir zirvə idi ki, səviyyəsi vəzifəsindən qat-qat yüksəklərdə dururdu. Güclü şəxsiyyət olduğunu hamı bilirdi.

Bu dünyada kişini tanıtdıran iki fəzilətin ikisi də onda var idi. Bu fəzilətin biri səxavətdir, biri də mehribanlıq. Onun səxavətindən danışanlar qeyrətli kişilərdir. Ürəyi, idrakı dərya olan, dili düz, könlü tox, zəka əhli, elmli, ürfanlı, özü saf, adı bu xalqın dilində yaxşıların yaxşısı kimi çəkilən, yad edilən əyilməzlik simvolu idi. Ruhu şad olsun! Yaxşı adamlara mənim dostum, əsl mənada xalqımızın şairi Eldar İsmayıl gözəl misralar həsr edib:

*İdrakdı, kamaldı haqqına çatan,*
*Tanrı sevgisini içində tapan.*
*Böyük yaradanın nurundan qopan*
*İlahi qüdrətdi yaxşı adamlar.*

**İbadulla AĞAYEV,**
*Epidemiologiya kafedrasının müdiri, əməkdar elm xadimi, professor*

# Əməkdaşımızın monoqrafiyası Dövlət Mükafatına təqdim olunub




Universitetimizin I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanovun gərgin əməyi nəticəsində ərsəyə gələn iki cildlik "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyası "Elm və təhsil" nəşriyyatının vəsatəti ilə Azərbaycan Respublikası Dövlət Mükafatı Komissiyasına təqdim olunub.

Qeyd edək ki, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun ön söz yazdığı monoqrafiya 976 səhifədən, 31 fəsildən ibarətdir. Ulu Öndərin nitqlərinin müxtəlif aspektlərinin kompleks şəkildə araşdırıldığı monoqrafiya dilçilik, ədəbiyyat, jurnalistika, diplomatiya, tibb və digər sahələrdə çalışan mütəxəssislər üçün dəyərli vəsaitdir.

**"TƏBİB"**

# Bu il Azərbaycanda yerli yoluxma nəticəsində malyariya halları qeydə alınmayıb



Azərbaycanda 2013-cü və 2014-cü illərdə, eləcə də 2015-ci ilin ötən dövrü ərzində yerli yoluxma nəticəsində malyariya halları qeydə alınmayıb. Yalnız 2013-cü ildə 4 nəfər, 2014-cü ildə 2 nəfər, 2015-ci ildə isə 1 nəfər tropik malyariyaya tutulub ki, bu da bizim ölkəmizə xarakterik deyil. Bu ilin ötən dövrü ərzində də yerli yoluxma nəticəsində malyariya hallarına rast gəlinməyib.

Bu faktları Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Süleyman Məmmədov AZƏRTAC-a müsahibəsində acılayıb. Onun sözlərinə görə, Azərbaycanda malyariya ilə bağlı vəziyyət 1990-cı illərin başlanğıcında sürətlə pisləşməyə başlayıb, 1993-1994-cü illərdə malyariya hallarının sayı 23-dən 667-yə, 1996-cı ildə isə 13 min 135-ə çatıb. Bu, əsasən ağır sosial-iqtisadi şərait, o cümlədən silahlı münaqişə nəticəsində təxminən bir milyon insanın məcburi köçkün olması ilə bağlı idi. Kür-Araz və Lənkəran düzənliklərində 1997-ci ildə baş vermiş daşqınlar vəziyyəti daha da ağırlaşdırmışdı. 1997-ci ildən başlayaraq genişmiqyaslı epidemiyaya nəzarət işləri nəticəsində ölkəmizdə malyariya ilə bağlı vəziyyət yaxşılaşmağa başlayıb. Şöbə müdiri bildirib ki, 2005-ci ildə Özbəkistanın Daşkənd şəhərində Dünya Səhiyyə Təşkilatının Avropa Regionunda malyariyanın aradan qaldırılması ilə bağlı regional təşəbbüs üzrə keçirilmiş ilkin görüşdə "Malyariyaya nəzarətdən onun eliminasiyasına (aradan qaldırılmasına) doğru" Regional Bəyanatı qəbul edilib. Son bir neçə il ərzində ölkədə malyariyaya nəzarətlə bağlı əldə edilmiş əhəmiyyətli nəticələri nəzərə alaraq Azərbaycan Daşkənd Bəyanatını imzalamış və 2008-2013-cü illər üçün Azərbaycan Respublikasında "Malyariyanın Eliminasiyası üzrə Milli Strategiya" qəbul edilib. Bu strategiya 2008-ci il martın 3-də Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilib. Yeni milli strategiyanın son məqsədi 2013-cü ilədək malyariya ilə yerli yoluxmaların kəsilməsi idi. Hazırda milli məqsədə nail olunub.

Qeyd edək ki, 25 aprel – Ümumdünya Malyariya Günüdür. Bu əlamətdar gün Ümumdünya Səhiyyə Assambleyası tərəfindən xəstəliyə nəzarət səylərinin artırılması məqsədilə 2007-ci ildə təsis edilib. Malyariya insana anofeles cinsindən olan ağcaqanadlar vasitəsilə keçir. Ağcaqanad sağlam insanı sancdıqda parazit insanın qanına keçir və yoluxma baş verir. Halsızlıq, yüksək qızdırma, üşütmə, baş ağrıları ilə özünü büruzə verən xəstənin vəziyyətində sonradan ağırlaşmalar qeydə alınır. Lakin malyariya müalicə olunan xəstəlikdir və bu ölümlərin qarşısını almaq mümkündür.

Dünya Səhiyyə Təşkilatının hesablamalarına görə, hər il 250 milyon insan malyariyaya yoluxur. Təkcə 2015-ci ildə malyariyadan ölənlərin sayı 438 min nəfər olub. Problem 2009-cu ildə dünyada daha aktual olub. Hazırda 3,2 milyard insan malyariyaya yoluxma təhlükəsi ilə üz-üzədir. Bununla yanaşı, dünyanın 57 ölkəsində yeni malyariya halları 75 faiz azalıb.

# Azərbaycan Tibb Universiteti İordaniyada beynəlxalq təhsil sərgisinə qatılıb

Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrinin sayına görə ölkəmizdə ilk yeri tutur. Xatırladaq ki, hazırda 24 ölkədən 1000-ə yaxın xarici tələbə ATU-da tibb, əczaçılıq, stomatologiya ixtisasları üzrə müxtəlif pillələrdə təhsil alır. Dünyanın müxtəlif ölkələrinin vətəndaşları arasında ATU-da təhsil almağa gələnlərin sayında artım müşahidə olunur.




Azərbaycan Tibb Universitetini bu tədbirdə xarici tələbələrlə iş üzrə dekan, dosent İsmayıl Əfəndiyev təmsil edib.



Dosent İ.Əfəndiyev tədbirdə ATU barədə geniş təqdimatla çıxış edib, sərgiyə gələn gənclərin və valideynlərin çoxsaylı suallarını cavablandırıb.



Qeyd edək ki, İordaniya dövləti tərəfindən ATU-nun diplomları rəsmən tanınındığından bu ölkənin gənc vətəndaşlarının Azərbaycan Tibb Universitetinə marağı ildən-ilə artır.

**ATU-nun mətbuat xidməti**

## MİNNƏTDARLIQ

Hörmətli redaksiya, həyat yoldaşım Mahirə Mirzəyeva bir ildən çox idi ki, daxili qanaxmadan əziyyət çəkirdi. Respublikamızda 4-5 klinikada olduq, müxtəlif texniki və tibbi müayinələr apardılar, müsbət nəticə olmadı. İki dəfə İrana getdik, saysız-hesabsız müayinələrdən, analizlərdən keçdi, yenə ümidverici nəticə olmadı.

# Şəfalı əllərin var olsun, həkim!



Xəstədə həkimə inam azalmışdı, dərmanlara, yoxlamalara etibar etmirdi. O, çox arıqlamış, artıq yataqdan qalxmağa, yeməyə həvəsi qalmamışdı. Bu vəziyyətdən xəbər tutan qohumlar xəstəni İmişli Rayon Mərkəzi Xəstəxanasının cərrahı Fərzulla Həsənova göstərməyi məsləhət bildilər. Fərzulla həkim xəstəyə yaxşılaşması üçün 4-5 günlük müalicə yazdı və sonra Bakı Sağlamlıq Mərkəzinə aparmağı vacib saydı. Xəstəni sağlamlıq mərkəzində səmimiyyətlə qəbul etdilər. Onun müalicə həkimi Hacıqulu Bağırov bütün lazımi müayinələri apardı, xəstənin şikayətlərini diqqətlə dinlədi və qərara gəldi ki, onu mütləq əməliyyat etmək lazımdır. 4-5 günlük operativ hazırlıqdan sonra Hacıqulu müəllim uğurlu əməliyyat apardı. Əməliyyatdan sonra da Hacıqulu müəllim intensiv müalicəni davam etdirdi, az vaxtda xəstə xeyli yaxşılaşdı. Həkim vacib məsləhətlərini verdi, həyat yoldaşımın gələcək müalicəsinin aparılması yollarına aid göstərişlər yazdı və evə buraxdı. İndi bir aydan çoxdur ki, evdəyik. Mahirə xanım Hacıqulu həkimi, onun köməkçisi, ATU-nun rezidenti Püstə xanımı sonsuz minnətdarlıq hissi ilə yad edir, onlara uzun ömür, cansağlığı, çətin işlərində uğurlar arzulayır.

Hörmətli redaksiya, sonradan öyrəndim ki, Hacıqulu Bağırov Azərbaycan Tibb Universitetinin ümumi cərrahlıq kafedrasının dosenti, Bakı Sağlamlıq Mərkəzinin baş həkiminin müavinidir. Mən həyat yoldaşım Mahirə xanımın, uşaqlarımızın, nəvələrimizin adından, şəxsən öz adımdan mərkəzin bütün kollektivinə, onun baş həkimi Hikmət Həsənova, xüsusən Hacıqulu müəllimə, Püstə xanıma təmənnasız xidmətə görə təşəkkür edir, minnətdarlığımı bildirirəm. Arzum budur ki, ölkəmizdə, Bakımızda belə abad, müasir tələbələrə cavab verən tibb müəssisələri çox olsun, əlbəttə, onun həssas kollektivi kimi.

**Hörmətlə,**

**Əsgər MİRZƏYEV,**
*əmək veteranı, İmişli sakini*

## Allah rəhmət eləsin!

ATU-nun Əsaslı kitabxanasının və Azərbaycan dili kafedrasının əməkdaşları, "Təbib" qəzetinin kollektivi Əsaslı kitabxananın direktoru Ziyafət xanıma atası

**Sabir müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

I uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Həqiqət xanıma

**bacısının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin I kurs, 212[a] qrup tələbəsi Nadirli Leyla Mehdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 704[b] qrup tələbəsi Yəzdanpənah Ziya Kazım oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hümbətova Rövnaq Mahmud qızına 1975-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən nevropatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, 290[b] qrup tələbəsi Dadaşov Tofiq Tahir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 308